Xalq qəzeti.- 2021. - 2 sentyabr. S. 3

**İşğaldan azad olunmuş ərazilərimizdə erməni vandalizminə məruz qalan mədəniyyət abidələrimizin bərpa edilməsi təkcə bir nəslin tarixini deyil, eləcə də mədəniyyət işığında yoğrulan ruhumuzu da yenidən canlandırır. Biz xoşbəxt nəsilik ki, bu oyanışın şahidi oluruq. Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bu oyanışı yaşayıb. 20 Yanvar hadisəsindən sonra meydanlara axın edən milyonlarla soydaşımız bu gün azad və əbədi bizə məxsus olan Şuşa şəhərinə sancılan üçrəngli bayrağın kölgəsindədir.**

# “İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi”

Prezident İlham Əliyev Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışında olarkən belə bir fikir səsləndirdi ki, 1982-ci ildə burada Vaqifin məqbərəsini inşa etdirmək sıradan hadisə deyildi. Belə ki, xanlıqlar dövrünü tarixin qara ləkəsi kimi qəbul edən sovet ideologiyasının hökm sürdüyü bir dövrdə bu hadisə həqiqətən inqilab, oyanış idi. Bu sözləri bizimlə söhbətində fəlsəfə elmləri doktoru, professor Əlisa Əhmədov bildirdi. Professor dedi:



– Bəli, bu, həqiqətən də inqilab idi. Əfsuslar olsun ki, Azərbaycan xalqı 30 ilə yaxın müddət ərzində öz torpaqları ilə yanaşı, mədəniyyətindən, tarixindən də uzaq düşmüşdü. Lakin işğalçı düşmən nə qədər çalışsa da, bu tarixi Azərbaycan torpağını özününküləşdirə bilmədi. Xüsusilə də, Şuşanı. Ölkə başçısının da dediyi kimi, Şuşanın işğalı xalqımızın böyük faciəsi idi, lakin bu şəhər işğala baxmayaraq, Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Dahi şair Xəlil Rza Ulutürkün dediyi kimi, “bu dünyada otun, suyun torpağın da yaddaşı var”.

Bu gün biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı tarixin böyük oyanışlarından birini yaşayır. Bildiyimiz kimi, Prezident İlham Əliyev avqustun 29-30-da Şuşa şəhərinə səfər edib. Səfər zamanı edilən açılışlar və təməli qoyulan layihələrə ümumi planda baxanda görürük ki, Şuşa təkcə sözdə deyil, reallıqda da zəngin Azərbaycan mədəniyyətinin beşiyi, eləcə də mərkəzidir. Sevindirici hal odur ki, Şuşada olarkən dövlət başçısına şəhərin baş planı təqdim edildi. Bu isə o deməkdir ki, bərpa və yenidənqurma işləri əvvəlkindən də sürətli davam etdiriləcək. Tezliklə torpaq həsrətini uzun illər köksündə gəzdirən şuşalılar öz doğma, tarixi yurdyerlərinə qayıdacaq, keçmiş və müasir mədəniyyətlərin vəhdəti olan Şuşaya qovuşacaqlar.

Yeri gəlmişkən, qeyd edim ki, planları hazır olan və artıq dövlət başçısı tərəfindən təməli qoyulan yaşayış massivində yerləşən məhəllələr də tarixi orijinallığını itirmədən, müasir standartlara uyğun layihələndirilib.

Prezident İlham Əliyev səfərin ikinci günündə Vaqif Poeziya günlərinin açılışında iştirak etdi. Gələn il Şuşanın 270 illiyinin təntənəli şəkildə qeyd olunacağını bildirən dövlət başçısı, həm də ulu öndərlə birlikdə gəldiyi Şuşa səfərlərindən bəhs etdi. Qeyd etdi ki, təxminən 40 il əvvəl ümummilli lider Heydər Əliyev Şuşada Vaqifin poeziya gecələrində iştirak edərkən 59 yaşı var idi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılış mərasimidir və onun da 59 yaşı var. Bu sözləri dinləyərkən, istər-istəməz kövrəldim və ulu öndərin “mən ona özüm qədər inanıram, gələcəyinə böyük ümid bəsləyirəm” sözlərini xatırladım. Bəli, bizim canlı şahidi olduğumuz bu tarix bir liderin xalqı qarşısındakı borcunu yerinə yetirməsi ilə yanaşı, həm də bir oğulun ata vəsiyyətinə sadiqliyidir. O tarix ki, əsrlər keçsə də unudulmayacaq və millətimizin başını daim dik saxlayacaq!



*Söhbəti qələmə aldı:*
***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***